# Mənəvi puçluğun göstəricisi

Yaradıcı adam üçün Vətən və milli mövqe hər şeydən üstün olmalıdır. Rüstəm İbrahimbəyovun “Qafqaz üçlüyü” filmində nəinki Vətən idealı yoxdur, hətta milli mövqe də açıq-aşkar kobud şəkildə tapdalanmışdır. Bu, xalq yazıçısı adı ilə heç cür bir araya sığmır. Ümumiyyətlə, Rüstəm İbrahimbəyov bütün fəaliyyəti boyu həmişə Azərbaycan cəmiyyətində yalnız neqativ hallar axtarıb, inkişafımızı görmək və göstərmək istəməyib. Sadəcə, onun əsərlərindəki tənqid uzun müddət ədəbiyyatçılar tərəfindən keçmiş sovet hakimiyyətinə yönəldilmiş kəskin münasibət kimi yozulub. Əslində isə o, həmin uydurma bəhanə ilə daim öz ölkəsini və xalqını aşağılayıb. Xalq və Vətən anlayışı Rüstəm İbrahimbəyovdan çox uzaq olan keyfiyyətlərdir. “Qafqaz üçlüyü” də onun mənsub olduğu xalqdan tam uzaq düşməyinin, düşmənə xidmət göstərməyinin açıq ifadəsidir. Azərbaycana, öz xalqına münasibətdə radikal bir erməni ilə Rüstəm İbrahimbəyovun mövqeyi eynidir. Açıq görünür ki, Rüstəm İbrahimbəyov Ermənistanın, erməni dairələrinin rəğbətini qazanmaq, erməni lobbisindən ianə qopartmaq üçün canfəşanlıq edir. “Qafqaz üçlüyü” filmi xalqını təhqir edən Rüstəm İbrahimbəyovun heçliyini və puçluğunu ekrana çıxarır. Belə bir adamın xalq yazıçısı adını daşımağa qətiyyən mənəvi haqqı yoxdur.



***İsa HƏBİBBƏYLİ,***
***Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, akademik***

Azərbaycan. - 2018.- 31 may.- S.7.